BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№1 Humanitar elmlər seriyası 2015*

# METODİKA

**UOT 82-01**

## ORTA MƏKTƏBLƏRDƏ NƏSR ƏSƏRLƏRİNİN TƏDRİSİ METODİKASI

**Ş.N.ƏLİYEVA**
***Bakı Dövlət Universiteti***
***Shelale.aliyeva.1969@mail.ru***

*Yuxarı siniflərdə bədii əsərlərin təhlili zamanı problemli təhlilə xüsusi fikir verilməlidir. Aşağı siniflərdə əsər təhlili zamanı şagirdlərin üzərində daha çox dayandıqları təhlil yolları və təhlil obyektləri ilə yuxarı siniflərdə məhdudlaşmırlar. Məlumdur ki, V-IX siniflərdə əsər təhlilində diqqət daha çox oradakı bədii obrazları səciyyələndirməyə verilir. Obrazların təhlili X-XI siniflərdə də müəllim və şagirdin diqqət mərkəzində olur. Əsil sənətkar əsərlərində qarşıya qoyulan, qaldırılan problemləri şüar şəklində irəli sürmür. O, çox zaman bu problemləri bədii obrazların köməyi ilə həll edir. Bu yaşda olan şagirdlərin mütaliəsini, əsərə münasibətini, oxuduğuna qiymət verməsini istiqamətləndirmək o qədər də asan deyildir. Yadda saxlanılmalıdır ki, müəllim bu siniflərdə oxuyan şagirdlərin ictimai fəaliyyətini, həyatın astanasında dayanan həssas, tələbkar, müstəqil düşüncə sahibi olduğunu yaxşı təsəvvür etməli və həmişə nəzərdə saxlamalıdır.*

**Acar sözlər:** yuxari siniflər, ədəbiyyat dərslikləri, texnika, orta məktəb, nəsr əsərləri

Bədii əsərlərin mahiyyətinin dərk olunması mütaliə ilə, zövqlə çox bağlı olan mühüm əqli prosesdir. Nəsr əsərlərinin dərk olunması elə təşkil olunmalıdır ki, şagirdlər onun köməyi ilə bədii zövqə yiyələnə bilsinlər. Bu işdə müəllim bədii əsərlərin mütaliəsindən, bu əsərlərin şagirdlərə bədii zövq tərbiyəsi üçün verdiyi imkanlardan səmərəli istifadə etməli, onu istiqamətləndirməyi bacarmalıdır. Yadda saxlamaq lazımdır ki, bədii zövqün əsası, bünövrəsi məktəbdə qoyulur. Məhz bu əsas üzərində isə müasir oxucular öz zövqlərini inkişaf etdirir və formalaşdırır. Nəsr əsərlərinin şagirdlər tərəfindən dərk olunmasının təşkili bir sıra amillərlə bağlıdır. Bunlardan ən başlıcası odur ki, müəllim mütaliə zamanı dərk olunmanın psixoloji məsələlərinə xüsusi fikir versin. Unutmamalıdır ki, məktəb, həmişə olduğu kimi, öz inkişafının müasir mərhələsində də psixoloji tədqiqatlara böyük ehtiyac hiss edir və onun köməyinə, elmi nəticələrinə arxalanır. Məktəbdə verilən biliklərin möh-

kəm və davamlılığı, həyatla, quruculuq işi ilə bağlılığının təmin olunmasını şərtləndirmək üçün indi psixoloji problemlərlə yalnız bu sahənin mütəxəssisləri deyil, daha başqa ixtisas sahibləri də maraqlanır və məşğul olurlar (1, 156). Həmin psixoloji problemlərdən biri də məktəbdə məqsəd onların səciyyələrində olan zidd cəhətləri, hər birinin dünyagörüşünü, həyata baxışlarını müqayisəli surətdə daha yaxşı öyrənməkdən ibarətdir. Müqayisə surətlərin səciyyəsini qarşılıqlı öyrənmək üçün çox əlverişli və maraqlıdır. Təcrübə göstərir ki, V-IX sinif şagirdləri surətləri müqaiysə etməyə böyük meyl göstərir, işə həvəslə girişirlər.

Şagirdlərdə surətləri müqayisə etmək bacarığı yaratmaq üçün elə əsərlər götürülməlidir ki, o, təhlil üçün münasib və əlverişli olsun, müqayisə etmək zəruriyyəti tələb etsin. Surətin səciyyəsini tamamlamağa kömək edən vasitələrdən biri də təbiət təsvirləridir. Təcrübə göstərir ki, bəzi müəllimlər V - IX siniflərdə əsərin süjeti ilə bağlı olan surətlərin səciyyəsini başa düşməyə kömək edən bədii təsvirlərin əhəmiyyətinə az diqqət yetirir, təbiət təsvirinin əsərdə nə münasibətlə və necə verildiyini çox zaman nəzərdən qaçırırlar. Bu isə ciddi səhvdir. Nəsr əsərlərində təbiət (peyzaj) və əşya təsviri əsərdəki hadisə və məfkurə ilə sıx surətdə bağlıdır. Ədəbiyyat dərslərinin əsas vəzifələrindən biri də bu əlaqəni konkret misaIlarla göstərməkdir. Bədii əsərdə gözəl bir bağın, ətəyi güllü-çiçəkli, başı isə qarlı dağın, şiddətli yağışın və boranın, soyuq qış gecələrinin, gözəl baharın və s. təsviri təsadüfi verilmir. Bu təsvir insan taleyini və İnsan səciyyəsini açmağa kömək edir, onlarla bağlı olur. Məsələn, C.Məmmədquluzadənin «Poçt qutusu» hekayəsinin sonunda oxuyuruq: «Hava qaranlıqlaşmışdı. Novruzəli ac-acına çuvallarını ac ulağın üstünə salıb, qatdı qabağına və zoğal ağacı ilə döyə-döyə getdi kəndə». Bu təsvir surətin keçirdiyi həyəcanı və düşdüyü vəziyyəti tamamlayır. Müəllim çalışmalıdır ki, V-IX sinif şagirdlərini bu cür əsərlər üzərində işlədərkən onlar təbiət tasvirlərini oxumağa meyl etməklə kifayətlənməsinlər, təbiət təsvirlərinin hansı məqsədlə işlənildiyini, nəyə xidmət etdiyini əsərin ideyası ilə əlaqədar olaraq mənimsəsinlər.

Səciyyə tərtibi. Əsərdə iştirak edən surətlərin səciyyəsini müəyyənləşdirmək çox əhəmiyyətli bir məsələdir. Bu, şagirddən xüsusi hazırlıq, bacarıq və vərdiş tələb edir. Təcrübə göstərir ki, bəzi məktəblərdə şagirdlər səciyyə tərtib etməyi bacarmır və bu sahədə iki cəhəti – surətin həyatı ilə səciyyəsini bir-birindən fərqIəndirməkdə çətinlik çəkir və ya qarışdırırlar. Məsələn, Novruzəli surətinin hansı səciyyəvi sifətləri vardır? soruşduqda bəzi şagirdlər Novruzəlinin İtqapan kəndinin sakini olduğunu, onun kənddən xana sovqat gətirdiyini, xanın təkidi ilə poçtxanaya getdiyini, verilən məktubu qutuya atdığını, divanxanaya düşdüyünü və s.-ni axıra qədər sadalayırlar.

Çox təəssüf ki, bəzi müəllimlər şagirdlərin bu cür cavabları ilə razılaşır, hətta yeri gəldikcə özləri də surətlərin səciyyəsini, onun həyat yolunu da və ya başına gələnləri sadalamaqda görürlər.

-Fərdi səciyyə.

-Müəllimin verdiyi plan üzrə səciyyə.

-Müqayisəli səciyyə.

Fərdi səciyyə. Ədəbiyyat materiallarının xüsusiyyətindən asılı olaraq bədii əsərin surətlərini müxtəlif şəkildə səciyyələndirmək olar.

Surəti fərdi səciyyələndirmək işinin daha düzgün təşkili üçün müəyyən plan üzrə hərəkət etmək lazımdır.

Müəllim fərdi səciyyə zamanı şagirdlərin diqqətini təhlil olunan surətin əsas cəhətlərinə cəlb etməlidir. Çünki şagirdlər surətin əsas əlamətlərini yaxşı öyrəndikdə onu həm düzgün səciyyələndirər, həm də əsərdə iştirak edən başqa şəxslərin və hadisələrin mövqeyini düzgün təyin edə bilərlər.

Müəllimin verdiyi plan üzrə səciyyə. Təcrübə göstərir ki, şagirdlər surətləri fərdi surətdə səciyyələndirməyi öyrəndikdən sonra, bu sahədəki işi onlara müstəqil icra etdirmək də olar. Odur ki, müəllim şagirdlərin surətləri fərdi səciyyələndirmək haqqındakı bilik və vərdişlərində istifadə edib, əvvəlcədən verdiyi plan üzrə də onları işlədə bilər. Şagirdlərin əsər üzərində müstəqil işlərini təşkil etmək üçün bu, ən faydalı bir üsuldur.

Müəllimin verdiyi plan üzrə səciyyə tərtib edərkən mətndən nümunələr seçmək və planın maddələrini bu nümunələr əsasında aydınlaşdırmaq çox vacibdir.

Müqayisəli səciyyə. Səciyyə tərtibində ən mükəmməl üsul müqayisəli səciyyədir. Müqayisə təlimdə əsasdır. K.D.Uşinski müqayisə vasitəsinin əhəmiyyətindən danışaraq demişdir: «Müqayisə hər cür anlamanın başqa cür təfəkkürün əsasıdır» (2, 95)

Müqayisə üsulu o zaman yaxşı nəticə verir ki, təbii və yerində olsun.

Süni və yersiz müqayisələr nə müqayisə edilən surətlərin səciyyəsini başa düşməyə kömək edir, nə də şagirdə yeni bilik verir.

Müəllim surətləri səciyyələndirərkən həm bir əsərin surətləri, həm də müxtəlif əsərlərdəki surətləri (bu surətlər oxşar və zidd səciyyəli ola bilər) bir-biri ilə qarşılaşdırıb səciyyələndirə bilər.

Surətlərin səciyyəsini müqayisə edərkən, müqayisə olunan surəti şagirdlərin vaxtilə öyrəndikləri əsərlərdəki surətlərlə də müqayisə etmək olar. Məsələn, «Məktub yetişmədi» hekayəsindəki Qurban surətindən danışarkən onun səciyyəsini şagirdlərin bundan əvvəl öyrəndikləri Novruzəli ("Poçt qutusu") surəti ilə müqayisə etmək faydalıdır. Bu üsül həm keçmiş materialı möhkəmləndirmək, həm də yeni materialı aydınlaşdırmaq və yaxşı başa düşmək üçün şagirdlərə çox kömək edir.

Səciyyə tərtibi mürəkkəb bir işdir. Bu sahədə şagirdlərin aldıqları bilik, qazandıqları vərdiş tədrici yolla inkişaf edir və dərinləşir. Müəllim bu işi sadədən mürəkkəbə, asandan çətinə doğru davam etdirməli, genişləndirməli və tamamlamalıdır. Təbiidir ki, şagird V sinifdə əsərdə iştirak edən surətlərin səciyyəsinin ən ümdə cəhətlərini izah etməkdə çətinlik çəkməzsə, VI sinifdə o, bu sahədə qazandığı vərdişləri genişləndirər, VII-IX siniflərdə isə tamamlayar. Beləliklə, doqquzillik məktəbi qurtaran şagird səciyyə tərtibi haqqında

müəyyən vərdiş qazanar.

1.Məktəbin yuxarı siniflərində bədii obrazların təhlili. Bədii əsərlərin mətni üzərində şagirdlərin fəallığını təmin edərkən çalışmaq lazımdır ki, onlar ayrı-ayrı yazıçının özünəməxsus sənətkarlıq xüsusiyyətlərini, yaradıcılıq nailiyyətlərini mükəmməl mənimsəsin və qiymətləndirməyi bacarsınlar. Təcrübə göstərir ki, bəzi müəllimlər əsərin ideya məzmunu, bədii xüsusiyyətləri üzərində şagirdlərin sinifdə və sinifdənxaric müstəqil işlərini, onların fikri fəallığını təmin etmədən özləri əsər haqqında ümumi mülahizə söyləməklə kifayətlənirlər. Belə olduqda, şagirdlər obrazın necə yaradıldığını, məktəbdə təhlil olunan obrazlar silsiləsində ayrı-ayrı qəhrəmanın yerini və mövqeyini müəyyənləşdirməkdə çətinlik çəkirlər.

Obrazın portreti. Bədii əsərdə portret yaratmaq əsil sənətkarlıq tələb edən mühüm məsələlərdən biridir. Portret fransızca partrait sözündən alınmışdır. Mənası insanın xarici əlamətlərini, geyimini, görkəmini təsvir etmək deməkdir. Bəzən portretə «qəhrəmanın mənəvi portreti» də deyilir. Bu zaman əsərin qəhrəmanın mənəvi keyfiyyətləri nəzərdə tutulur. Görkəmli sənətkarlar həmişə təsvir etdikləri obrazların yalnız zahiri görkəmini yaratmaqla kifayətlənmir. onların daxili aləmini də əlvan boyalarla əks etdirirlər. Bu xüsusiyyət bədii əsərlərdə, əsasən, aşağıdakı kimi özünü göstərir: a) obrazın zahiri əlamətləri gözəl, xoşagələn, cazibədar olduğu kimi, mənəvi aləmi, işi, əməli də gözəl nəcib olur. Məsələn, «Firuzə» hekayəsinin qəhrəmanı Firuzənin zahiri görkəmi ilə mənəvi aləmi arasında belə əlaqə və vəhdət vardır; b) obrazın zahiri gözəlliyi və səliqəsi mənəvi aləmi ilə ziddiyyət təşkil edir: «Sevil» pyesində Dilbərin zahiri səliqəsi və gözəlliyi «öz yerində» olsa da, bu, onun çürük əməllərini, pozğunluğunu gizlədə bilmir.

Bədii portret, xarakteri daha yaxşı başa düşmək və möhkəm yadda saxlamaq üçün bir vasitə rolunu oynayır. Bədii portret xarakteri tamamlayır, onun canlı və dolğun çıxmasına səbəb olur. Əlbəttə, bədii portret haqqında məlumat verərkən bütün əsərlərə eyni tələblə yanaşmaq olmaz. Çünki bədii portret əsərin janr xüsusiyyətlərindən asılı olaraq müxtəlif cür yaranır.

Təcrübə göstərir ki, portret haqqında şagirdlərə məlumat vermək üçün əvvəlcə nəsr əsərlərindən istifadə etmək daha faydalıdır. Məlumdur ki, bədii portret yaratmaq sahəsində nəsr əsərlərinin imkanları çox genişdir. Görkəmli nasirlər öz əsərlərində təhkiyə yolu ilə qəhrəmanların bədii portretlərini bütün cizgilərilə yaradırlar. C.Məmmədquluzadənin «Danabaş kəndinin əhvalatları», S.S.Axundovun «Qaraca qız», C.Cabbarlının «Firuzə» və s. əsərlərində ustalıqla yaradılmış bədii portretlər şagirdlərə geniş məlumat vermək üçün əhəmiyyətlidir. Bədii portret yaratmaq sahəsində dram əsərlərinin məhdud imkana malik olduğunu başqa janrlarla müqayisəli surətdə öyrətmək də bədii ədəbiyyatda portret yaratmağın mürəkkəb və rəngarəngliyini aydınlaşdırmaq üçün faydalıdır. Təcrübə göstərir ki, dram əsərlərində dramaturqun bədii portret yaratmaq sahəsində qarşısına çıxan çətinlikləri, ayrı-ayrı sənətkarların bu işdəki müvəffəqiyyətlərini nəsr və nəzm əsərləri vasitəsilə şagirdlərin əv-

vəllər aldıqları bilik və bacarıqdan sonra, əsasən, X-XI siniflərdə öyrətmək lazımdır. Yuxarı siniflərdə keçilən dram əsərlərində obrazın portreti səhnədə canlanır, rejissor, onun işinə, sənətinə müvafiq geyimdən, qrimdən və s. istifadə edir. Bu əsərlərdə dramaturq həm də remarkalar və obrazların replikaları vasitəsilə öz qəhrəmanının bədii portretini yaratmaq imkanına malikdir. Görkəmli sənətkarlar bu imkanlardan bacarıqla istifadə edir, tamaşaçını və rejissoru obrazın xarakterini, onun təbliğ etdiyi ideyanı düzgün başa düşməyə istiqamətləndirir.

Bu məqsədlə M.F.Axundovun komediyaları zəngin material verir. M.F.Axundov öz ölməz komediyalarında Molla İbrahim Xəlil kimyagər, dərviş Məstəli şah, Hacı Qara və s. obrazların xarakterlərini yaradarkən onların portretini məharətlə çəkməyə müvəffəq olmuşdur. Müəllim çalışmalıdır ki, şagirdlər Hacı Qaranın hadisədən-hadisəyə, məclisdən-məclisə dəyişdiyini görsün, bu sahədə sənətkarın böyük məharət göstərdiyini düzgün qiymətləndirsinlər. Hacı Qaranın portreti üzərində aparılan bu cür işlər vasitəsilə şagirdlər möhkəm başa düşəcəklər ki, M.F.Axundov bununla, eyni zamanda, göstərmək istəyir ki, Hacı Qara yalnız pul düşkünü deyil, həm də tədbirli və zirəkdir, çətin vəziyyətdən çıxmağı bacarır. O. hər şeyi ölçüb-biçir, ehtiyatla hərəkət edir.

Obrazın həyat yolu. Bədii əsərdəki obrazları fərdiləşdirmək, onların xarakterini daha canlı şəkildə ümumiləşdirmək üçün görkəmli sənətkarlar qəhrəmanların özlərinə məxsus həyat yolunu, tərcümeyi-halını da konkretləşdirməyə xüsusi əhəmiyyət verirlər. Şagirdlər «Hacı Qara» komediyasının tədrisi zamanı əyani olaraq başa düşürlər ki, dramaturq əsərin baş qəhrəmanı Hacı Qaranın xarakterini dolğun və tipik yaratmaq üçün onun məşğuliyyətini, ailə tərkibini, fərdi xüsusiyyətlərini təsvir etməyə xüsusi fıkir vermişdir. Beləliklə, dramaturq təsvir obyektinin konkretliyi və həyatiliyi haqqında oxucuya - tamaşaçıya aydın məlumat və canlı təsəvvür verməyə müvəffəq olmuşdur ki, bu da Hacı Qaranın tipik xarakter kimi yaranmasına kömək etmişdir. Hacı Qara sövdəgərdir. M.F.Axundov pyesdə replikalar vasitəsilə onun sövdəgərliyi haqqında məlumat verir: «Bazarın bir küncündə tikilmiş dükanın içində qədəkdən, bezdən, şilədən, alçaq çitlərdən tökülübdür. Hacı Qara yarımarşın əlində bikef oturubdur».

Göründüyü kimi, remarkadan Hacı Qaranın məşğuliyyəti, dükanındakı mallar, xüsusilə onun alış-verişdən götürdüyü «qazanc» haqqında lazımi məlumat öyrənmək olur.

1.Deməli, müəllim bədii obrazların məhz hansı ustalıqla yaradıldığı haqqında şagirdlərə məlumat verərkən əsərdəki qəhrəmanların həyat yolunu, peşə və sənəti, ünvanı (əgər əsərdə bunlar vardırsa) ilə vəhdətdə götürməli və təhlil etməlidir. Bu, xarakter yaradan hər bir yazıçının özünəməxsus sənətkarlıq bacarığını meydana çıxarmaq və qiymətləndirmək üçün, şübhəsiz, faydalıdır.

2.Hər bir müsbət obrazın mənəvi siması, onun əsərdəki obrazlar silsiləsindəki yeri, yazıçının bu obrazı yazanadək əxlaqi keyfiyyətlərinin məhz han-

sı cəhətlərini əsas götürdüyü və s. tələblər baxımından qiymətləndirilməlidir.

Nəsr əsərlərindən fərqli olaraq, dramatik və lirik əsərlərdə obrazların yaradılması sənətkardan daha başqa bədii vasitələrdən istifadə tələb edir. Məsələn, şagirdləri dram əsərlərindəki obrazların təhlili üzərində işlədərkən müqayisə yolu ilə başa salmaq lazımdır ki, nəsr əsərlərindən fərqli olaraq, dram əsərlərindəki obrazların xarakterləri, əsasən, onların öz danışığı və əsərdə iştirak edən başqa obrazların sözləri vasitəsilə yaradılır. Nəsr əsərlərində gördüyümüz xüsusiyyət - obraz haqqında müəllifin geniş mülahizə söyləməsi burada mümkün deyildir. Oxucu tamaşaçı dram əsərlərində obrazların xarakteri haqqında müəllif remarkalarından məlumat alır ki, bu da kifayət deyildir.

3. Deməli, bədii əsərlərdəki müsbət xarakterli obrazların təhlili zamanı çalışmaq lazımdır ki, bu obrazların mənəvi aləmini yaradan sənətkarların özlərinə məxsus bədii boyalardan necə istifadə etdiklərini əsərin janr xüsusiyyətləri, orada təsvir olunan konkret tarixi şərait və s. əsasını şagirdlər möhkəm mənimsəsinlər. Bu, əsərin ideya və dəyərini başa düşmək üçün də əhəmiyyətlidir.

Mənfi xarakterli obrazların mənəvi aləmi. Əsil sənətkarlar yalnız müsbət qəhrəmanları deyil, mənfi obrazlarını da realistcəsinə təsvir edir, bu sahədə öz bədii boyalarını tündləşdirməkdən çəkinmirlər. Bu cür sənətkarların əsərlərini oxuyanda görürsən ki, müsbət obrazlar ona görə dolğun və xaraktercə mükəmməldir ki, ona qarşı qoyulan mənfi obrazlar da həyati, canlı təsvir edilmişdir. Təhlil zamanı çalışmaq lazımdır ki, şagirdlər ədəbi əsərlərə düzgün qiymət versin, bir-biri ilə üz-üzə gələn müxtəlif görüşlü, müxtəlif əqidəli ədəbi qəhrəmanların dıinyagörüşlərindəki fərqləri ayıra bilsin və özlərində elmi dünyagörüşü tərbiyə etsinlər. Bu, obrazların xarakterini yaradan sənətkarın qüdrətini, bu sahədəki bədii imkanlardan istifadə etmək məharətini aydınlaşdırmaqla bərabər, onun dünyagörüşünü, yaşayıb yaratdığı dövrün ictimai hadisələrinə münasibətlərini öyrənmək üçün də çox vacibdir.

Müəllimin yekun sözü və ya yekun məşğələsi. Müəllimin yekun sözü və yekun məşğələlərinin də ciddi əhəmiyyəti vardır. Dərsin bu mərhələsi, görülən işləri düzgün yekunlaşdırmaqda çox lazımdır.

4. Müəllim mətnin məzmunu və təhlili üzərində apardığı işləri qurtardıqdan sonra şagirdlərin biliyinə yekun vurmalı, mübahisəli məsələləri aydınlaşdırmalı və lazımi nəticələr çıxarmalıdır.

Yekun məşğələsində görüləcək işlər bunlardır: keçilənlərin təkrarı; alınmış biliyin möhkəmləndirilməsi; müvafiq nəticənin çıxarılması və biliyin hesaba alınması. Keçilənlərin təkrarı alınan biliyin möhkəmləndirilməsinə kömək edir. Odur ki, müəllim mətnin oxusu və təhlili üzərində apardığı işləri qurtardıqdan sonra, keçdiyi materialları təkrar etməlidir. Tədris prosesində təkrarın təşkili müəllimdən pedaqoji-metodik bacarıq tələb edir. Təkrar o zaman səmərəli olar ki, müəllim təkrarı ümumiləşdirmə yolu ilə aparsın, şagirdlərin yeni bilikləri köhnə biliklərini, yeni məlumatları köhnə məlumatlarını tamamlasın və dərinləşdirsin. Keçilənləri müqayisə yolu ilə təkrarlamaq alınan biliyin möhkəm olmasına çox kömək edir (3, 158).

Əsərləri janr üzrə müqayisə etmək də şagirdlərə yaxşı təsir bağışlayır. Təkrar zamanı müqayisəni elə qurmaq lazımdır ki, o, təbii və canlı olsun, müqayisə olunan obyektlər bir-birini tamamlasın və s. Süni və yersiz müqayisələr şagirdlərə heç bir yeni şey öyrətmir, təsiri də az olur.

Şagird əgər mövzu bir neçə saat içərisində keçilərsə, o zaman ayrı-ayrı hissələri təkrarlamalı, onlar arasında əlaqə yaratmalı, əsər üzərində bütün işlər qurtardıqdan sonra isə onu ümumilikdə təkrar etməlidir.

## ƏDƏBİYYAT


1. Yusifov F. Azərbaycan dili və ədəbiyyatı tədrisinin bəzi problemləri. Bakı: 2010, s.156.
2. Paşayev A., Soltanova Q., Həşimova L. Azərbaycan dili və ədəbiyyat təliminin bəzi problemləri. Bakı: 2002, s. 95.
3. Paşayev A., Cəfərova E. İnteraktiv təlim Azərbaycan dili və ədəbiyyat dərslərində. Bakı: 2008, s. 158.


## МЕТОДИКА ПРЕПОДАВАНИЯ ПРОИЗВЕДЕНИЙ ПРОЗЫ В СРЕДНЕЙ ШКОЛЕ


**Ш.Н.АЛИЕВА**


## РЕЗЮМЕ


В процессе изучения художественных произведений в старших классах особое внимание должно уделяться проблемному анализу. В старших классах нельзя ограничиваться только средствами и объектом анализа, свойственными младших классов. Как известно, в V-IX классах больше всего внимания уделяется характеристике образов. Анализ образов находится в центре внимания также в X-XI классах. Профессиональный мастер слова не дает решение проблемы в готовом виде, а посредством образов. Ученикам старших классов не так легко направить на оценку прочитанного произведения, выразить свое отношение к нему. Преподавателю следует также помнить о том, что в таком возрасте ученики старших классов должны уметь правильно выражать свое собственное мнение об окружающем мире, в том числе о произведениях литературы.



**Ключевые слова:** старшие классы, преподавание литературы, техника, средняя школа, произведения прозы


## METHOD OF TEACHING PROSE AT SECONDARY SCHOOLS


**Sh.N.ALIYEVA**


## SUMMARY


In the course of studying of art works in senior forms special attention should be focused on the problem analysis. In senior forms it is impossible to be limited only to means and object of analysis, peculiar to elementary grades. As is known, in V-IX forms most attention is given to the characteristics of images. The analysis of images is the center of attention in X-XI forms as well. A professional master does not give the problem decision in a ready form, or by means of images. The teacher should also remember that at such age pupils of senior forms should be able to express correctly their own opinions on the world around, including literary works.



**Key words:** senior forms, teaching literature, a technique, secondary school, prose works